**AMEA RMİ-nin "Cəbr və riyazi məntiq" şöbəsinin 2015-ci il birinci yarısı üçün elmi və elmi təşkilatı fəaliyyəti haqqında**

**H E S A B A T I**

Hesabat dövründə şöbənin əməkdaşlarının 3 məqalə və 1 kitabı çapdan çıxmış, 1 məqalə və 1 kitabı çapdadır və 6 məqalə və 1 kitabı çapa hazırlanmışdır.

Aparıcı elmi işçi Yusufov Vladimirin "Полугруппы топологических отображений и размерность" adlı məqaləsi "Сибирский математический журнал" da və "Connectivity and semigroups of homeomorphic local homeomorphic and open continuous mappings of topological spaces" adlı məqaləsi isə "Riyaziyyat və Mexanika İnstitutunun xəbərləri" jurnalında dərc edilmişdir.

Aprel ayının 24-də Orenburq şəhərində keçirilmiş Beynəlxalq Konfransa şöbə müdiri dos. Əli Babayev və b.e.i. Valeriya Məclumbəyovanın göndərdikləri "О трактате Насиреддина Туси "Сборник по арифметике с помощью доски и пыли"" adlı məqalə konfransın materiallarındaa dərc edilmişdir.

Aparıcı elmi işçi f.-r.e.n. Eminağa Məmmədovun M.Mərdanov, S.Mirzəyevlə birlikdə “Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar". III kitab nəşr edilmişdir.

Nəsirəddin Tusinin "Təcrid əl məntiq" əsərinin ərəb dilindən rus dilinə tərcüməsinin redaktəsi başa çatmışdır və kitab nəşrə təqdim edilmişdir.

N.Tusinin "Evklidin şərhi" əsərinin azərbaycan dilindən rus dilinə tərcüməsi işi davam etdirilir.

N.Tusinin "Arximedin "Şar və slindir" kitabına şərh" əsərinin ərəb dilindən azərbaycan dilinə tərcüməsi davam etdirilir.

Şöbə müdiri Əli Babayev iyun ayının 4-də Rusiya Elmlər Akademiyasının V.A.Steklov adına Riyaziyyat İnstitutunun Sankt-Peterburq filialında keçirilmiş Beynəlxalq seminarda məruzə etmişdir.

Şöbənin a.e.i.-si E.Məmmədov Zəngi liseyində, şöbə müdiri Ə.Babayev isə Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji fəaliyyətini davam etdirirlər.

Şöbə müdiri Əli Babayev Lider televiziya kanalında $\pi$ ədədi haqqında çıxış etmişdir.

ADPU-nin "Cəbr və həndəsə" kafedrasının yeddi magistrı martın 1-dən 28-ə kimi şöbədə elmi təcrübə keçmişlər.

**Şöbə müdiri: f.-r.e.n., dos. Əli Babayev**